

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (24.056)

7 sentyabr 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə “ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə “Securex Caspian” sərgiləri ilə tanış olub. Əvvəlcə dövlətimizin başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərə baxıb.

Məlumat verilib ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir. Müasir silah və texnikanın nümayiş etdirildiyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə təşkil olunur. Sərgidə Azərbaycan Ordusunun Qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş olunur.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara, müxtəlif ölkələrin pavilyonuna baxıb.

Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin “AZAD Sistemlər” müəssisəsinin istehsal etdiyi hərbi texnika ilə tanış olub, Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxıb.

## Naxçıvan şəhərində 782 ön ödənişli smartkarttipli elektrik sayğacı quraşdırılıb

*Ötən illərdə enerji təhlükəsizliyi ilə bağlı atılan mühüm addımlar bu sahənin hərtərəfli inkişafına zəmin yaratmaqla muxtar respublikamızın enerji idxalçısından enerji ixracatçısına çevrilməsinə səbəb olub. Diyarımızın energetikasında mövcud təbii potensialdan lazımınca istifadə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkan verib, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə edilib. Təbii ki, enerjinin əldə olunması ilə yanaşı, onun düzgün paylanılmasına, səmərəli istifadəsinə, israfçılığın qarşısının alınmasına diqqətin artırılması, transformator yarımstansiyalarına, müxtəlifgərginlikli elektrik xətlərinə nəzarətin gücləndirilməsi, texniki itkinin aradan qaldırılması üçün vaxtlı-vaxtında təmir-bərpa işlərinin aparılması da vacib şərtdir. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinin ilbəil daha da böyüməsi, yeni inzibati, yaşayış binalarının tikilməsi, istehsal və sənaye müəssisələrinin qurulması energetika sahəsinə diqqətin daha da artırılmasını, ərazilərdə xidmətin operativ təşkilini zəruri edir.*



Naxçıvan Şəhər Elektrik Şəbəkəsi ilin bütün dövrlərində sakinlərin, müəssisə və təşkilatların tələbatına uyğun elektrik enerjisi ilə təminatına diqqətlə yanaşır, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Cari ildə də şəbəkənin balansında olan təsərrüfatlarda bir sıra tədbirlər icra olunub. Aldığımız məlumata görə, 2022-ci ilin 7 ayında 10/0,4 kilovoltluq elektrik hava xətlərində və yarımstansiyalarda təmir işləri aparılıb, yararsız xətt dirəkləri yeniləri ilə əvəzlənib, istismara yararlı, lakin qüsurlu olan xətt dirəklərinə beton altlıqlar vurulub, maşın-mexanizmlərə mütəmadi baxışlar keçirilib. Həmçinin elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimuma endirilməsi üçün mühəndis-texniki tədbirlər davam etdirilib. Bəhs olunan dövrdə 36 ədəd 10/0,4 kilovoltluq paylayıcı güc yarımstansiyası, texniki təhlükəsizlik normalarına cavab verməyən 165 ədəd elektrik hava xətti dirəkləri əsaslı təmir olunaraq istismara verilib, elektrik hava xətlərində aparılan təmir işlərində 77 dirəyə beton altlıqlar vurulub. 8,6 kilometr uzunluğunda elektrik hava xətti naqilləri yenisi ilə əvəz edilib, qəzalı vəziyyətdə olan 250-dən artıq 10 kilovoltluq dayaq izolyatorları əsaslı təmir olunub.

Məlumatda o da qeyd edilir ki, şəhərdə aparılan quruculuq və abadlıq işləri ilə bərabər, Nizami küçəsində gücü 400 kVA olmaqla 1, Ə.Qəmküsar küçəsində “Oksigen” sexində gücü 250 kVA olmaqla 1, “N” hərbi hissədə 1000 kVA 1, 40 kVA 1, Kimya-Biologiya Təmayüllü Liseydə 250 kVA olmaqla 1 yarımstansiya quraşdırılaraq istismara verilib. Əhalinin enerji təchizatının keyfiyyətini yaxşılaşdırmaq üçün inzibati ərazilərdə baxışlar keçirilib, nəzarət-ölçü işləri aparılıb və enerji təchizatının keyfiyyətini yaxşılaşdırmaq üçün əsaslı təmir işləri görülüb. B.Abbasov küçəsində uzun müddət istismar olunan yarımstansiyada 400 kVA gücündə 4 transformatorun istismar müddəti bitdiyindən eyni güclü təzə transformatorla əvəz olunub. Abadlıq işləri aparılan “SMU-6” adlanan ərazidə binatipli yarımstansiya əsaslı təmir edilib, 160 kVA gücündə güc transformatoru quraşdırılaraq istismara verilib. “N” hərbi hissədə aparılan abadlıq işləri ilə əlaqədar gücü 160 kVA olan 2 açıqtipli yarımstansiya əsaslı təmir olunaraq qapalı paylayıcı yarımstansiya ilə əvəz edilib.

Cari ilin 7 ayında Naxçıvan Şəhər Elektrik Şəbəkəsi tərəfindən texniki təhlükəsizlik və əməyin mühafizəsi qaydalarının tələblərinə uyğun olaraq işçilər mövsümi geyim dəstləri və əlcəklərlə təmin olunub, maşın-mexanizmlərin saz vəziyyətdə saxlanılması üçün şəbəkədə təmir sahəsi yaradılıb. Bütün nəqliyyat vasitələri cari və əsaslı təmir olunub, texniki baxışdan keçirilib. Bu müddət ərzində şəbəkəyə məxsus 2 ədəd “Qazel” markalı və 1 ədəd “QAZ-52”, 2 ədəd “VAZ 21074” markalı maşınların mühərrikləri əsaslı təmir olunaraq istismara buraxılıb. Abadlıq işləri aparılan ərazilərdə 12 yarımstansiya əsaslı təmir olunub, köhnəlmiş KTP-lər yenisi ilə əvəz edilib. Yeraltı kabelləşmə işlərində 4,6 kilometr uzunluğunda 10 kilovoltluq elektrik hava xətti yeraltı kabellə əvəz olunub, 13800 metr 10 kilovoltluq kabel çəkilib. Ötən müddətdə aparılan təmir işləri zamanı yarımstansiyalarda 32 ədəd 10 kilovoltluq, 46 ədəd 0,4 kilovoltluq ayırıcılar istismara yararsız olduğu üçün yenisi ilə əvəzlənib. Şəbəkənin balansında olan yarımstansiyalarda boyama işləri aparılıb, inventar nömrələri və xəbərdaredici lövhələr vurulub, hazırda bu istiqamətdə işlər davam etdirilir. Naxçıvan şəhəri və inzibati ərazilərdə 2022-ci ilin 7 ayı ərzində 782 ön ödənişli smartkarttipli elektrik sayğacı quraşdırılıb ki, bunlardan 224-ü yeni tikilən evlərin payına düşür.

Ümumilikdə, 2022-ci ilin 7 ayı ərzində Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin tələbatçılarına 88 milyon 71 min kvt/saat elektrik enerjisi sərf olunub, bunun müqabilində 6 milyon 873 min manat vəsait toplanıb ki, bu da verilmiş elektrik enerjisinin dəyərinin 100 faizi deməkdir. O cümlədən əhaliyə 32 milyon 652 min kvt/saat elektrik enerjisi sərf olunub, bunun da müqabilində elektrik enerjisinin dəyərinin 100 faizi həcmində, yəni 2 milyon 775 min 50 manat vəsait yığılıb.

**Nail ƏSGƏROV**

*Suvarma mövsümünü uğurla başa çatdırmaq məqsədilə cəmiyyətin tabe təşkilatları tərəfindən cari ilin avqust ayında kanal və arxlarda lildən təmizləmə işləri davam etdirilmiş, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri yerinə yetirilmiş, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadəyə nəzarət olunmuşdur.*

## Torpaqların su təminatı yaxşılaşdırılır



Muxtar respublikanın mövcud su anbarlarında avqust ayının sonuna 75,09 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə hesabat ayında 20,38 milyon kubmetr su verilmiş, bunun müqabilində 16 min 971 hektar torpaq sahəsi suvarılmışdır. Ötən ay 6,95 kilometr beton və torpaq kanal, 11,1 kilometr ara arxlar, 1,2 kilometr kollektor lildən təmizlənmiş, 2,76 kilometr içməli su, 0,23 kilometr kanalizasiya xətti, 3,53 kilometr suvarma boru xətti, 0,21 kilometr yeni kaptaj tikilmişdir. 2,19 kilometr mövcud içməli su, 0,5 kilometr kanalizasiya xətlərində, 1,67 kilometr suvarma, 3,3 kilometr təzyiqli boru xətlərində, 0,75 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatını yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 1,05 kilometr paylayıcı xətt çəkilmiş, 15 supaylayıcı hovuz və hidrant quraşdırılmışdır. Çeşməbasar və Güznüt kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi məqsədilə hamarlanma və boru xətlərinin çəkilişi üçün qazıntı işləri aparılmış, 2,42 kilometr paylayıcı xətlər quraşdırılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 12, Sədərək rayonunda 1 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilmişdir.

Avqust ayında 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 6-na yeni nasos quraşdırılmaqla, 92-si təmir olunmuşdur. Bundan əlavə, Babək rayonunun Qahab kəndində içməli və suvarma suyu ilə təminatı yaxşılaşdırmaq məqsədilə 1 subartezian quyusunun qazıntı işləri başa çatdırılmış, ikinci quyunun tikintisinə başlanılmışdır. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Sədərək rayonunda içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə kanalizasiya və içməli su xətlərinin quyularında təmir-bərpa işləri aparılmış, yeni quyuların tikintisi üçün qazıntı işləri yerinə yetirilmiş, 1,5 kilometr kanalizasiya xətti quraşdırılmışdır. İçməli su xəttini qidalandıracaq subartezian quyularının yuyulması işləri davam etdirilmişdir. Eyni zamanda Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 1,64 kilometr içməli su xətti çəkilmiş, 9 müxtəlif diametrli siyirtmə quraşdırılmışdır. Yeni tikilmiş kaptajda əlavə olaraq 36 metr qollar quraşdırılmış, kaptajın ətrafında çəpərləmə, bərkitmə və hamarlanma işləri aparılmışdır. Su anbarlarında və mühafizəçi otağında təmirtikinti işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*Təhsil millətin gələcəyidir*

# Elm və təhsilin inkişafı gələcəyin etibarlı təminatıdır

*Ölkəmizdə elmin inkişafı dövlət siyasətinin prioritetləri arasında mühüm yer tutur. Ona görə ki, hər bir dövlətin inkişaf səviyyəsi zəngin bilik və çoxaspektli potensiala malik elmi ilə birbaşa əlaqəlidir. Azərbaycanın beynəlxalq aləmdə tutduğu önəmli yer, zəngin təbii ehtiyatlara malik ölkə kimi tanınması, dinamik sosial-iqtisadi inkişafı, Cənubi Qafqaz regionunun aparıcı dövlətinə çevrilməsi güclü elmi potensialın formalaşmasını da zəruri edir. Müasir dövrdə ölkələrin inkişafının təkcə iqtisadi göstəricilərlə, təbii sərvətlərlə, əhalinin həyat səviyyəsi ilə deyil, elmin inkişaf səviyyəsi, elmi potensialın olması ilə şərtləndiyi məlumdur. Bu amil də dövlətin elmin inkişafına yönəlmiş strategiyasının təşkili səviyyəsindən birbaşa asılıdır. Ölkəmizdə müşahidə edilən sosial-iqtisadi inkişafın mənbəyini də məhz elmin təşkil etməsi danılmaz faktdır.*





Azərbaycan təhsilinin mühüm inkişaf mərhələləri ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərin təhsil sahəsinə diqqət və qayğısı həmişə əvəzsiz olub. Hələ ölkəmizə rəhbərliyinin birinci dövründə – 1969-1982-ci illərdə ümummilli lider Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib. Ölkədə yeni ali təhsil müəssisələri açılıb, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib, lazımi avadanlıqlarla təchiz olunub. Ulu öndər daim gənclərin hərtərəfli inkişafına böyük önəm verirdi. Görkəmli dövlət xadiminin təşəbbüsü ilə hər il yüzlərlə Azərbaycan gənci SSRİ-nin müxtəlif şəhərlərinə ali təhsil almağa göndərilirdi. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar.

Ulu öndər deyirdi: ***"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir".*** Xalqımızın böyük oğlu həyatının və dövlət idarəçiliyinin bütün mərhələlərində məhz bu mövqedə dayanaraq təhsilə üstün qiymət verib. ***"Bizim gördüyümüz işlər, təhsil sahəsində həyata keçirdiyimiz islahatlar Azərbaycan dövlətini daha da yüksəltməyə yönəldilibdir"***, – deyən ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafını təmin edib. Müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilib və Azərbaycan təhsili yeni tərəqqi dövrünü yaşamağa başlayıb.

İntibah dövrünün böyük mütəfəkkiri Leonardo da Vinçi deyirdi ki, elm sərkərdə, təcrübə isə onun əsgəridir. Həqiqətən də, müharibədə yalnız güclü sərkərdəsi və təcrübəli əsgərləri olan ordu qalib gələ bilər. Bu həqiqətin cəmiyyət həyatının bütün sahələrində keçərli olduğunu əminliklə söyləmək olar. İstər siyasət, istərsə də iqtisadiyyat sahələrində güclü biliyə və təcrübəyə malik olmadan cəmiyyətin həyati tələblərini ödəmək mümkün deyil. Buna görə də, elmin insan həyatının inkişafında oynadığı mühüm rolu nəzərə alan xalqlar biliyin artırılmasını və elmi nailiyyətlərin sosial-iqtisadi tərəqqinin mənbəyinə çevrilməsi üçün zəruri addımları atmaqda gecikməmişlər. Qədim elm ocaqlarından biri hesab olunan Azərbaycanda da elmin inkişafı dövlət siyasətinin öncül istiqamətlərindən birini təşkil edir və sürətlə inkişaf edən iqtisadiyyatımızın tələblərinə cavab verməsi üçün elmi-təşkilati strukturların maddi-texniki bazası gücləndirilir.

Gəlinən nəticə isə budur ki, hər bir dövlətin sosial-iqtisadi, siyasi və mədəni inkişafının əsas təminatçısı elmdir. Ona görə də ölkəmizdə elmin inkişafının dövlət siyasətinin prioritetinə çevrilməsi təbiidir. Dəfələrlə bəyan edildiyi kimi, dövlətimizin əsas strateji inkişaf xəttini hakimiyyətlə intellektin, neft kapitalı ilə insan kapitalının, təbii resurslarla intellektual potensialın vəhdəti təşkil edir. Elm sərhədsizdir. Təbiət elmləri sahəsində böyük elmi kəşf və ixtiralar, ictimai-humanitar elm sahələrində fundamental fəlsəfi-əxlaqi təlimlər, nəzəri konsepsiyalar heç bir milli, irqi, dini mənsubiyyət tanımır. Onlar bütün bəşəriyyətin ümumi sərvətinə çevrilərək qlobal inkişafa xidmət edir. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması isə elmin inkişafı olmadan mümkün deyildir".***





Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan digər sahələrdə olduğu kimi, elm sahəsində də həmişə öz nailiyyətləri ilə seçilib, dünya elminə töhfələri ilə diqqəti cəlb edib. Ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyət göstərdiyi dövrlərdə Naxçıvan Muxtar Respublikasında elm və təhsil sahəsində də davamlı inkişaf və dirçəlişə nail olunub. Onu da xüsusi qeyd etmək lazımdır ki, 2014-cü il 4 sentyabr tarixli Fərmanla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi elmin və təhsilin davamlı inkişafının muxtar respublika rəhbərinin də daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq etdi. Fondun təşkilatçılığı ilə onlarla beynəlxalq və yerli səviyyəli konfranslar, seminarlar, dəyirmi masalar və disputlar keçirilib, elmi innovasiyaların, layihələrin dəstəklənməsi işinə diqqət artırılıb.

Ulu öndər Heydər Əliyev siyasi kursunu özünün fəaliyyət proqramı elan edən Ali Məclisin Sədri davamlı olaraq Naxçıvanda elmin, təhsilin inkişafı qayğısına qalır. Qısa zaman kəsiyində bu cür vüsətli inkişaf Ali Məclis Sədrinin uzaqgörən qərarları, xalqa bağlılığı, dövlətçiliyə sədaqəti nəticəsində əldə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" 2019-cu il 7 sentyabr tarixli Sərəncamı muxtar respublika rəhbərinin elmə, elm adamlarına göstərdiyi diqqət və qayğının bariz ifadəsi olmaqla həm də muxtar respublikamızda elm adamlarının inkişafına, yeni-yeni tədqiqat işləri aparmalarına böyük stimul olub. Ölkəmizdə elmə göstərilən qayğının digər bir təzahürü isə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə martın 27-nin "Elm Günü" kimi təsis edilməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: ***"Elm inkişaf etmədən ölkələrin inkişafını təmin etmək mümkün deyil. Ona görə də muxtar respublikada elmin inkişafı sahəsində mühüm işlər görülmüş, elmi potensial formalaşdırılmışdır".*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmin, təhsilin inkişafına üstün münasibəti və həmin istiqamətdə apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur. Məlumdur ki, elmin inkişafı, elmi- tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad edəndə uğur qazana bilir. Bu cəhətdən həm AMEA Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində, xüsusilə Naxçıvan Dövlət Universitetində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin, tədqiqatçının müasir texniki imkanlarla təmin olunması, internet şəbəkəsindən istifadə etməsi müasir cihaz və avadanlıqlar əsasında tədqiqat aparmaq imkanlarını reallaşdırır. Muxtar respublika rəhbərinin elm adamlarına göstərdiyi diqqət və qayğı doğma diyarımızda elmin, milli ziyalılığın inkişafına, elmi potensialın artmasına misilsiz töhfədir. Avqustun 26-da Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüşdə dediyi kimi: ***"... Elm, bilik sahibi olmaq işin bir tərəfidir. Əsas məsələ qazanılan bilikləri səmərəli tətbiq etmək, əmək sərf edərək əsl mütəxəssis kimi yetişmək, ölkəmizin ümumi inkişafına töhfə verməkdir".***

Bəşəriyyətin çoxəsrlik tarixi göstərir ki, elm və təhsil hər bir xalqın mütərəqqi inkişafını təmin edən ən zəruri vasitədir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli, ilk növbədə, bu sahələrin tərəqqisindən, habelə vətənpərvər və yüksəkixtisaslı kadr hazırlığından keçir. Ölkəmizdə elm və təhsilin inkişafında yaranmış keyfiyyətcə yeni mərhələnin reallıqları, həyata keçirilən islahatların istiqaməti Naxçıvan Dövlət Universitetinin fəaliyyətində də ciddiliklə nəzərə alınır. Gələcək həyata məhz bu ali məktəbdən qədəm qoyan minlərlə gəncin müasir biliklərə yiyələnməsi, elmi təşəbbüskarlığının artması, kompüter və informasiya texnologiyalarını dərindən mənimsəməsi üçün görülən işlər ardıcıl və sistemli səciyyə daşıyır. Naxçıvan Dövlət Universiteti bu gün çağdaş dünyanın standartlarına uyğun intellektual, yüksəkixtisaslı kadrların hazırlanması işini uğurla həyata keçirməklə burada tətbiq edilən tədrisin keyfiyyətinə, universitetin müasir tələblərə cavab verən yüksək maddi-texniki bazasına, beynəlxalq əlaqələrinə, ölkə hüdudlarından kənardakı mövqeyinə görə də böyük nüfuza malikdir. Ali təhsil ocağında "Texnopark"ın yaradılması, ilk dəfə olaraq ölkəmizdə mötəbər Beynəlxalq Tibbi Forumun keçirilməsi də bizlər üçün qürurvericidir.

Hər bir elm-təhsil müəssisəsinin qarşısında konkret məqsədlər var. Naxçıvan Dövlət Universitetinin də əsas məqsədi gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdan ibarətdir. Bunu düzgün dərk edən universitetin professor-müəllim heyəti qarşıdakı məqsədə çatmaq üçün strateji istiqamətləri dəqiq müəyyənləşdirmişdir. Onlar gələcəyin yetkin gəncliyini formalaşdırmaq üçün daim əzmkarlıqla işləyir, xalqımızın sabahı naminə layiqli vətəndaşların, savadlı kadrların hazırlanması üçün tədris və təhsilin keyfiyyətini günü- gündən gücləndirməyə çalışırlar. Sivil dünyanın ən mütərəqqi yeniliklərinin Naxçıvan Dövlət Universitetinə gətirilməsi, bu yeniliklərin tətbiqi universitetin Elmi Şurasını düşündürən başlıca məsələlərdəndir.

Universitetin professor-müəllim heyəti bu gün həm də milli ideologiyamızın formalaşması, genişləndirilib inkişaf etdirilməsi və təbliği sahəsində də böyük fəallıq nümayiş etdirir. Təhsil müəssisəsində ulu öndər Heydər Əliyevin mənəvi irsinin, bu fövqəlbəşər şəxsiyyətin zəngin dövlətçilik təcrübəsinin, idarəetmə fəlsəfəsinin öyrənilməsi və gənc nəslə çatdırılması mühüm vəzifə kimi qiymətləndirilir. Hazırda ali təhsil müəssisəsində fəaliyyət göstərən Heydər Əliyev Universiteti bu istiqamətdə ciddi araşdırmalar aparır. Ulu öndərin həyatının şərəfli səhifələrinin dolğun şəkildə araşdırılması, onun zəngin ideya-fəlsəfi dünyagörüşünə əsaslanan müasir dövlətçilik konsepsiyasının təbliği və bu konsepsiyadan irəli gələn vəzifələrin tələbələrə aşılanması yönündə mühüm işlər görülür.

Bütün bunlar göstərir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Prezident cənab İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasətin qayəsində xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi dayanır. Müstəqil Azərbaycanın son illər qazandığı böyük iqtisadi nailiyyətləri bu gün Naxçıvan Dövlət Universitetinin çoxsaylı tələbə- müəllim heyəti də öz gündəlik həyatında hiss edir və ardıcıl olaraq həyata keçirilən, hər bir ölkə vətəndaşının mənafeyinə əsaslanan islahatları böyük rəğbətlə qarşılayırlar.

***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azerbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin"***, *– deyən ulu öndərimizin yolunu layiqli şəkildə, böyük əzm və cəsarətlə davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uzaqgörənliyi və müdrikliyi sayəsində muxtar respublikamızda bütün sahələrdə, eləcə də elm və təhsil sahəsində böyük işlər görülmüş, bu sahələr inkişafın ən yüksək zirvəsinə qaldırılmışdır.*

**Səminə RÜSTƏMOVA**
***Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllimi***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən avqust ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 13 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergiödəyicisi tərəfindən əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, 1 vergiödəyici tərəfindən nağdsız hesablaşmalar zamanı POS-terminaldan istifadə edilməməsi, 1 vergiödəyici tərəfindən xarici valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi, 3 vergiödəyicidə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 4 şəxsdə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığortahaqqının ödənilməsi haqqında qəbz"in alınmaması, 1 şəxsdə malların Vergi Məcəlləsi ilə müəyyən edilən elektron qaimə-faktura əsasında alınmaması və 2 şəxsin isə vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Toxumçuluğun inkişafı diqqət mərkəzində saxlanılır



*Bu gün muxtar respublikamızda yaşadığımız sürətli inkişaf, tərəqqi, bütün istiqamətlərdə qazanılan uğurlar kənd təsərrüfatını da əhatə edir, burada nümunəvi təsərrüfat subyektlərinin formalaşmasına şərait yaradır. Bunun nəticəsidir ki, artıq diyarımızda kənd təsərrüfatının ən prioritet istiqamətlərindən sayılan keyfiyyətli toxum sortları yetişdirilir. Bu da sübut edir ki, yerli istehsal məhsullarına olan tələbatın yerinə yetirilməsi üçün hərtərəfli imkanlar təmin olunub. Bu isə muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsində başlıca şərtlərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: “**Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik, inkişaf və rifah vardır. İnsanların yaşayış səviyyəsi yüksəldilir. Ölkəmizdə digər sahələrlə yanaşı, kənd təsərrüfatı da inkişaf etdirilir, ərzaq təhlükəsizliyi təmin olunur. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı qarşıda duran əsas vəzifədir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada ərzaq təhlükəsizliyi təmin edilmişdir.**”*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 iyul tarixli Fərmanı ilə yaradılan “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin bu istiqamətdə həyata keçirdiyi tədbirlərlə yaxından





tanış olmaq üçün həmin ünvana üz tutduq. Müəssisənin direktoru ***Əbülfət Əhmədov*** bildirdi ki, muxtar respublikamızda toxumçuluq mərkəzinin əsas fəaliyyəti kənd təsərrüfatı ilə məşğul olan şəxslərin, ailə təsərrüfatçılarının yüksəkkeyfiyyətli toxuma olan tələbatını ödəməkdir. Qeyd etmək yerinə düşər ki, mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikası konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nizamnaməni, digər normativ-hüquqi aktları rəhbər tutur. Bununla yanaşı, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxs toxumçuluq sahəsində dövlət siyasətinin həyata keçirilməsində fəal iştirak edir, muxtar respublikada toxumun istehsalını, tədarükünü, saxlanmasını və satışını yerinə yetirir. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalçılarının yüksək məhsuldar bitki sortlarının toxumları ilə təchiz olunması istiqamətində tədbirlər görür, daxili bazarda toxum çatışmazlığının və qiymət artımının qarşısının alınmasında da iştirak edir. Mütəxəssislər müvafiq sahədə xarici təcrübəni öyrənmək və tətbiq etməklə məhsuldarlığın artırılmasına çalışırlar.





Qarşıya qoyulan əsas strateji məqsəd taxılçılıqla bağlı toxum sortlarının təmin edilməsidir. Çünki Naxçıvanın əlverişli təbii mühitinə görə burada taxılçılıq sürətlə inkişaf edir, demək olar ki, bütün rayonlarımızda taxılçılıqla məşğul olan iri təsərrüfatçılar var. Ərzaq təhlükəsizliyinin təmin edilməsində isə taxılçılığın mühüm əhəmiyyət daşıması bəlli məsələdir.

Əbülfət Əhmədovun sözlərinə görə, mərkəzdə növbəli əkin sisteminə uyğun iş rejimi tətbiq edilib. Buradakı toxum anbarları istifadəyə yararlı şəkildə saxlanılır, toxumtəmizləyən texnika və avadanlıqların müasir tələblərə cavab verməsi, toxumçuluq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin bu sahədə müəyyən qədər bilik və təcrübəyə malik olması bu sahədə inkişafın sürətlənməsinə təkan verir. Burada yüksəkkeyfiyyətli toxum sortları muxtar respublikamızın iqlim şəraitinə uyğun şəkildə yetişdirilir. Hazırda torpaq mülkiyyətçiləri mərkəzin yeddi növ taxıl sortundan istifadə edə bilirlər.

Mərkəzin laboratoriyasında gedən iş rejimi ilə də yaxından tanış olduq. Laboratoriya şöbəsinin əməkdaşı ***Günay Əliyeva*** bildirdi ki, biçimdən sonra buraya gətirilən toxumların təmizlik faizinə baxılır. Sonra onun çəkisi, təsərrüfata yararlılığı və cücərmə enerjisi təyin olunur. Mərkəzdə daha çox yerli taxıl sortlarının yetişdirilməsinə üstünlük verilir. Bunlardan “Fatimə”, “Konya”, “Bayraktar”, “Sönməz”, “Ceyhan”, “Əhmədağa” ən çox tələb olunan taxıl sortlarıdır. Toxumlar laboratoriyada analiz olunduqdan, təmizlik faizi və keyfiyyəti yoxlandıqdan sonra alıcılara təqdim edilir.

Onu da qeyd edək ki, toxumçuluğun inkişafı heyvandarlıq sahəsinin inkişafına da öz təsirini göstərir. Ona görə də burada çalışanlar heyvandarlığın inkişafına da dəstək olmaq üçün yüksəkkeyfiyyətli yem istehsalına da töhfələr verirlər. Daha bir vacib məsələ ondadır ki, ölkəmizə geni dəyişdirilmiş toxum sortlarının girişi qadağan olunub. Bu da yerli məhsulların yüksək səviyyədə əhaliyə təqdim olunmasını zəruri edir. Şərur şəhərində inşa olunan Sənaye məhəlləsində yağ istehsalı da həyata keçiriləcək ki, onun da fəaliyyəti yerli istehsalçıların, fermer və fərdi şəxslərin günəbaxan və qarğıdalı yağı istehsalından asılıdır. Ona görə də mərkəzin ərazisində 10 hektara yaxın qarğıdalı, 7 hektara yaxın günəbaxan əkilib. Mərkəzin fəaliyyəti bununla bitmir, muxtar respublika ərazisində əkmək üçün şam, palıd ağacları tinglərinin yetişdirilməsi də həyata keçirilir. Yeniliklərdən biri də odur ki, yaxın vaxtlarda küknar ağaclarının yetişdirilməsinə də başlanılacaq. Mərkəzdə gördüklərimiz belə deməyə əsas verir ki, bu gün muxtar diyarımızda aqrar sektorda istehsal imkanlarının artırılması, o cümlədən ölkə üzrə ərzaq təminatının möhkəmləndirilməsi, təsərrüfatçıların yüksəkkeyfiyyətli toxumlarla təmin olunması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində toxumçuluğun inkişafına böyük diqqət və qayğı göstərilir. Bu da təsadüfi deyil. Çünki gələcək bol məhsulun əsası torpağa səpilən toxumla qoyulur. Mütəxəssislərin də qənaəti belədir ki, məhsuldarlığın artmasında yüksək reproduksiyalı toxum müstəsna əhəmiyyət daşıyır. Muxtar respublikamızda taxılçılığın inkişafında müstəsna xidmət göstərən “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxs də öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır.

**Bülbül QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# Tikinti-quraşdırma işləri ərazinin seysmikliyi nəzərə alınmaqla aparılır



*Zəlzələlər bəşəriyyətin üzləşdiyi təbiət hadisələrindən ən təhlükəlisi kimi qiymətləndirilə bilər. Dünyanın bir çox iri şəhərləri seysmik zonalarda yerləşir və onların sakinləri bu təbiət hadisəsinin yarada biləcəyi riski yaşamaq məcburiyyətindədir. Zəlzələlərin ən təhlükəli xüsusiyyəti onunla qiymətləndirilir ki, yaşayış və sənaye əhəmiyyətli binalar, tikililər və obyektlər çox qısa zaman kəsiyində dağılır, insan tələfatı ilə nəticələnir.*

Hər il yaşadığımız planetdə seysmik titrəyişlərin sayı, təxminən, 3500000-ə çatır ki, onlardan 1 milyona yaxını seysmik stansiyalar tərəfindən qeydə alınır və 34 mini hiss olunur. Dünyada maqnitudası 5,0-5,9 olan (maqnituda zəlzələnin enerjetik kəmiyyət ölçüsüdür) 800-ə yaxın, maqnitudası 6,0-6,9 olan 120-yə yaxın, təxminən, maqnitudası 7-7,9 olan 18-ə yaxın dağıdıcı potensiala malik, hər 10-20 ildən bir maqnitudası 8-8,9 fəlakətli zəlzələ baş verir. Azərbaycanda gün ərzində hiss olunmayan irili-xırdalı zəlzələlərin, təqribən, sayı 80-100, dünyada isə 3000-ə yaxın olur.

Güclü zəlzələlər şəhər və qəsəbələrdə dağıntılar törədir, on minlərlə insanın həyatına son qoyur. Zəlzələnin proqnozlaşdırılması üçün müxtəlif yanaşmalar olmaqla müxtəlif modellər yaradılmağa çalışılır. Heyvanların anormal davranışı, atmosferdə baş verən anomal dəyişmələr, qrunt sularının dəyişməsi, çay və dənizlərdə baş verən dəyişikliklər, yer qabığının üst hissəsində radon qazının sıxlığının dəyişməsi kimi parametrlər zəlzələlərin proqnozlaşdırılmasında əsas meyarlar kimi göstərilir. Lakin texnologiyanın bu cür inkişafı, süni intellekt və robotlar əsri sayılan XXI-əsr bu təbiət hadisəsinin öyrənilməsində aciz görünür. Yuxarıda dediklərimizi nəzərə alaraq onu qeyd etmək olar ki, qısa zaman kəsiyində zəlzələnin vaxtını, gücünü və yerini etibarlı şəkildə proqnozlaşdırmaq hazırda mümkün deyil. Bu təbiət hadisəsinin qarşısının alınması üçün yüksəkkeyfiyyətli, seysmikliyə dayanıqlı yaşayış binaları, tikililər və obyektlər inşa olunmalı və insanlar arasında maarifləndirmə tədbirləri aparılmalıdır. Bu tədbirlərin görülməsi üçün muxtar respublikada nəzarət mexanizmi həyata keçirilir.

Qiymətləndirmə meyarları və ərazinin yeni seysmik rayonlaşdırma xəritəsinin hazırlanması strateji əhəmiyyət daşıyır. 1989-cu ildə tərtib olunmuş Azərbaycan ərazisinin müvəqqəti seysmik rayonlaşdırma xəritəsində muxtar respublika ərazisi 9 ballıq seysmik zona kimi ayrılır. Bu regionda 9 ballıq zəlzələlərin təkrarlanma periodu orta hesabla 100 il təşkil edir. Seysmik təhlükəlilik baxımından, əsasən, güclü zəlzələlərin episentrləri Ermənistan ərazisində yerləşir və onların intensivliyi muxtar respublikanın bütün ərazisini qapayır.

Naxçıvan Muxtar Respublikasının ərazisi, əsasən, Arazboyu ərazilər 0,2g, dağətəyi və yüksək dağlıq ərazilər isə 0,3-0,4g maksimal təcil zonasında yerləşir, bu da ümumiyyətlə, ərazinin yüksək seysmik təhlükəliliyindən xəbər verir. Zəlzələnin ən dəqiq proqnozu belə mütəxəssisləri zəlzələyə davamlı binalar tikmək məsuliyyətindən heç də azad etmir. Düzdür, bina və qurğuların tikintisi zamanı antiseysmik vasitələrdən istifadə olunması tikililəri çox zaman dağılmaqdan xilas edir, lakin bu vasitələrdən istifadə çox baha başa gəlir. Məsələn, zəlzələyə davamlı seysmik vasitələrdən istifadə 7 ballıq zəlzələyə hesablanmış tikintidə 4 faiz, 8 ballıq zonada 8 faiz, 9 ballıq zonada isə 12 faiz xərclərin baha başa gəlməsinə səbəb olur. Onu da qeyd edə bilərik ki, yağış suları, yeraltı sular, nəm və rütubət bina və tikililərin yükdaşıma qabiliyyətini aşağı salır. Su izolyasiyası olmayan binalar və tikililərdə hesablamalar göstərir ki, 10 il müddətində binanın yükdaşıma qabiliyyəti 66 faiz aşağı düşür.

Muxtar respublikada gündən-günə artan iqtisadi fəallıq və nəzarət mexanizmi yaşayış məntəqələrində aparılan yenidənqurma və tikinti işlərində seysmikliyin bu normativləri əsasında qiymətləndirilməsinə imkanlar yaradır. Naxçıvan Muxtar Respublikasının seysmik təhlükəlilik baxımından qiymətləndirilməsi mühüm və aktual xarakter daşıyır. Müstəqillik əldə olunduqdan sonra Naxçıvan Muxtar Respublikası ərazisində aparılan tikinti-quraşdırma işləri ərazinin seysmikliyi nəzərə alınmaqla və yüksək keyfiyyətlə aparılır. Muxtar respublikanın rayonlarında aparılmış yenidənqurma işləri nəticəsində bütün yaşayış binalarında fasad örtüyü dəyişdirilir və kompleks şəkildə təmir işləri həyata keçirilir. Sovet dövründə tikilmiş yaşayış binalarının əksəriyyətində dəmir-beton bərkitmə işləri aparılır, yükdaşıyan konstruksiyaların gücləndirilməsi işləri həyata keçirilir və bu tədbirlər davam etdirilməkdədir. Təmir olunacaq yaşayış binalarının və obyektlərin zəmin səviyyəsinə görə qazılması bitium təbəqə ilə izolyasiyası bakteriya və kif əmələ gəlməsinin qarşısını alır, binanın möhkəmliyini və dəmir-beton örtüyünün korroziyadan qorunmasını təmin edir. Bu da binanın uzunömürlülüyünü və gələcəkdə baş verə biləcək seysmik titrəyişlərə qarşı dözümlülüyünü artırır. Görülən işlərin nəticəsi olaraq binalar dizayn cəhətdən gözəlləşir, təhlükəsizlik baxımından seysmik davamlılığı artırılır və gələcəkdə baş verə biləcək bir sıra seysmik hadisələrdən, baş verə biləcək təhlükələrdən qorunmanı bizlərə ehtiva edir.

**İlkin VƏLİBƏYOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

Muxtar respublikada sosial müdafiə sahəsində aparılan islahatlar sığorta-pensiya sisteminin inkişafına öz təsirini göstərməkdədir. Sığorta-pensiya sisteminin tətbiqi sahəsində

# Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi başa çatdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən tədbirlər uğurla davam etdirilir. Belə ki, fond hər ay olduğu kimi, sentyabr ayında da pensiyaçılara bütün növ əmək pensiyalarının ödənilməsini vaxtından əvvəl başa çatdırıb. Qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib. Ümumilikdə, pensiya ödənişinə 15 milyon 376 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin verilməsinə isə 345 min 66 manat vəsait yönəldilib. Bundan başqa, əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtından əvvəl ödənilməsi təmin edilib. Təyin olunan pensiya və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilib.

Qeyd edək ki, hazırda tətbiq olunan pensiya sistemi sosial sığorta prinsiplərinə uyğun olaraq fəaliyyət göstərir. Yəni əmək pensiyası hüququnun yaranması, eləcə də məcburi dövlət sosial sığortası üzrə ödəmələrdən yararlanmaq üçün məcburi dövlət sosial sığortahaqqının ödənilməsi əsas şərtdir. Vətəndaşlar tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqları onların fərdi şəxsi hesablarına işlənilir ki, gələcəkdə pensiya təyinatı aparıldıqda həmin məlumatlar əsas götürülür. Sosial sığortahaqqı ödəməyən şəxslərin isə gələcəkdə əmək pensiyası və digər sığorta ödəmələrini almaq hüquqları yoxdur. Ona görə də vətəndaşların sosial sığorta ödəmələrindən yararlanmaları üçün məcburi dövlət sosial sığorta haqları vaxtında və tam məbləğdə ödənilməlidir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Soruşmayın mən kiməm? Mən sevdiyimi əsgər qiyafəsində qucaqlamaq istərkən, onu 3 rəngdən ibarət şanlı bayrağıma bükülmüş görənlərdənəm. Tabutuna sarılıb təsəlli tapanlardan, xəyalını, arzusunu sevdiyi ilə birgə torpağa dəfn edənlərdənəm. Mənim də bütün şəhid ailələri kimi başım uca, köksüm yaralı, gözüm qəmlidir. Mənim adım xarıbülbüldür, uzun illər namərd düşmənin ayağı altında tapdalanmaqdan qurtarmış, doğma məmləkətim Şuşanın azadlıq rəmzi xarıbülbül...***



**2022-ci il "Şuşa ili"dir**

## Elimin Qələbə simvolu, Şuşamın azadlıq rəmzi

Hər dəfə televiziya ekranlarında, fotoşəkillərdə xarıbülbülü gördükcə qeyri-ixtiyari bir hiss canlanır qəlbimdə, onunla söhbət edir, dərdimi bölüşürəm. Sanki xəyalım məni bir daha o tarixə – Şanlı Qələbənin eyforiyasına aparır. Özümdən asılı olmayaraq, yuxarıda sadaladığım ifadələr süzülür dilimdən, məni ələ qələm almağa vadar edir.

...8 noyabr 2020-ci il. Bu tarix hər bir azərbaycanlının fəxarət və qürur hissi ilə yaddaşında saxladığı, ömürboyu unutmayacağı Şanlı Qələbəmizin tarixidir. Bu tarix ananın



övlada, Vətənin vətəndaşa, həsrətin vüsala qovuşduğu tarixdir. Bu tarix xalqımızın birlik, bərabərlik nümayiş etdirdiyi, bir elin ər meydanında qəhrəmanlıq dastanı yazdığı tarixdir. Axı o gün hamımız şuşalı idik, axı biz bu zəfəri düz 30 ildir, gözləmişdik. Həmin günün hər bir dəqiqəsi yadımdadır. Nə yaxşı ki, bu şanlı tarixə biz də şahidlik etdik! Ali Baş Komandan cənab İlham Əliyev hərbi geyimdə Şəhidlər xiyabanını ziyarət etmək üçün gəlmişdi... Bu yer Azərbaycan xalqına böyük müjdəni vermək üçün seçilmiş ən gözəl, ən müqəddəs məkan idi. Axı şəhidlər Vətən, torpaq yolunda canlarını düşünmədən fəda edən insanlardır. Mütləqdir ki, Ali Baş Komandanımızın tarixi nitqini şəhidlərimizin ruhları da duydu. Çünki bu qürur duyulası kəlmələri eşitməyə bizdən çox onların mənəvi haqqı çatırdı. Həmin vaxt bütün azərbaycanlıların gözü, diqqəti televiziyada idi və nəhayət, 30 il həsrətində olduğumuz sözləri Ali Baş Komandanın dilindən eşitdik:

***Əziz Şuşa, sən azadsan!***
***Əziz Şuşa, biz qayıtmışıq!***
***Əziz Şuşa, biz səni dirçəldəcəyik!***

Ey gözəl, əsrarəngiz məmləkətim, Şuşa! Səni nə qədər vəsf etsəm, haqqında nə qədər yazsam, yenə də azdır. İsa bulağının təmiz, şəfalı, səfalı suyundanmı yazım, yoxsa səni mehriban anatək bağrına basan, səni şana-şöhrətə ucaldan Cıdır düzündənmi yazım? Bəlkə, başı dumanlı, vüqarlı, dəyanətli dağlarından yazım? Xalq mahnısında deyildiyi kimi: "Şuşanın dağları başı dumanlı". Artıq sənin dağlarındakı qara duman çəkilib, başının üstünü alan o əfi ilanları Vətənimin igid oğulları məhv ediblər. Artıq sən azadsan, əziz Şuşamız!

*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi!*
*İstəyirəm, səma kimi! Günəş kimi! Cahan kimi!*

İndi sənin vüqarın, şöhrətin səmalar qədər yüksəklərdə, qürurun işıqsaçan Günəş kimi odlu-alovlu, yurdun, yuvan, isti ocaqların isə sonsuz kainat kimi azad və müstəqildir, mənim qədim Şuşam! Bütün xalqımız alqışlarla, böyük coşqu hissi ilə sənin azadlıq xəbərini qarşıladı. Üçrəngli bayrağımız ölkəmizdə Böyük Zəfəri bayram edən insanların əlində, evlərin eyvanlarında vüqarla dalğalanırdı. Kiçikdən-böyüyə hamının qəlbi bir döyünürdü, gözlərdən sevinc göz yaşları axırdı. Bu göz yaşları 30 illik həsrəti yudu, apardı. Sanki hamımız yenidən doğulduq, – axı biz indi Şuşalı, Laçınlı, Ağdamlı, Zəngilanlı, Qarabağlı, bir sözlə, bütöv vahid Vətən torpağında bütöv Azərbaycanıq. Bu göz yaşları həm də canını fəda edən şəhidlərimiz üçün axırdı, qürurla axırdı, sevinclə axırdı; övladının xoş gününə şadlanan ananın sevinc göz yaşları kimi axırdı. Ürəklərdə illərdir, məskən salmış, qaysaq bağlamış o kəlmə bir anın içində Vətən göylərininənginliklərinə ucaldı: "Gözün aydın olsun, Vətən torpağı, rahat yatın, yurdumuzun şəhid övladları".

*Şuşa, ucalmısan boz buludlara,*
*Vətən torpağının heykəlisən sən!*

Bu gün artıq hər bir Azərbaycan vətəndaşı Şuşa şəhərinə, doğma Qarabağa səfər edərək o yerlərin saf havasını uda bilir. Eşitmişəm ki, Şuşa torpağına ilk addımını atan hər kəsdə bir həyəcan, bir kövrəklik olur. Necə də olmasın? Düşünürsən...bu torpaq uğrunda üç minə yaxın şəhid verdik, bu torpağı belə azad, müstəqil görə bilməyimiz üçün onlar canlarından keçdilər. Şuşa torpağına yurdumuzun qədir-qiymət bilən övladlarının izi var, Üzeyir Hacıbəylinin ölməz sənət əsərləri, Bülbülün xoş avazı, Xurşidbanu Natəvanın Vətən yanğısı, torpaq həsrəti var, ona görə bu müqəddəs torpağı biganəliklə ziyarət etmək mümkün deyil.

Şuşanın işıqlı sabahları hələ qarşıdadır. Bütün ruhumuzla, qəlbimizlə inanırıq ki, Şuşa Vətənimizin ən gözəl şəhərlərindən birinə çevriləcək, çünki onu qoruyan, ona sahib çıxan Vətən var və Vətəni canı qədər sevən qeyrətli övladları var. Şuşa nə qədər abadlaşsa da, öz torpağında uğrunda qan tökən Vətən övladlarının izlərini daim saxlayacaq! O Vətən övladları ki dumanlı dağların başında durdular, dumandan özlərinə bir xeymə qurdular, xəyallarından gözəl yurdlarını keçirdilər və dumanlar başında dastana döndülər! Bir daha gözün aydın olsun, əziz Şuşa. Ruhunuz şad olsun, illərin həsrət yanğısını söndürən qəhrəmanlar. Vətən sizlərlə qürur duyur! Siz qürur mənbəyimiz, fəxr yerimizsiniz...

**Zeynəb XƏLİLOVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Estrada orkestri konsert proqramı ilə çıxış edib



*Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri Milli Musiqi Günü münasibətilə Kəngərli Rayon Mədəniyyət Sarayında konsert proqramı ilə çıxış edib.*

Konsertdə ilk olaraq Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Popuri" ifa olunub. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva, istedadlı müğənnilər Nərmin Hüseynova, Bəhruz Quliyev, Cəfər Tağıyev və Samir İsmayılovun ifasında Fikrət Əmirov, Oqtay Kazımi, Emin Sabitoğlu, Rafiq Babayev, Elza İbrahimova və digər görkəmli bəstəkarlarımızın müəllifi olduğu mahnılar, eləcə də orkestrin ifa etdiyi musiqilər tamaşaçılara xoş ovqat bəxş edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 10 yanvar tarixli Sərəncamı ilə yaradılan orkestrin bədii rəhbər-dirijoru istedadlı gənc musiqiçi Elvin Əliyarovdur. Muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə rəngarəng konsert proqramları ilə çıxış edən estrada orkestri uğurlu çıxışları ilə qısa müddətdə estrada həvəskarlarının rəğbətini qazanıb. Orkestrin repertuarında Azərbaycan bəstəkarları ilə yanaşı, Avropa bəstəkarlarının da musiqi əsərlərinə geniş yer verilir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Araz-Naxçıvan"dan növbəti qələbə

*Futbol üzrə Azərbaycan I Divizionunun 3-cü turuna start verilib.*



İlk iki turu qələbə ilə başa vuran "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu Naxçıvan Muxtar Respublika Stadionunda "Şamaxı-2" Futbol Klubunu qəbul edib.

Oyuna sürətli başlayan komandamız 21-ci dəqiqədə hesabı açmağa müvəffəq olub. Xəyal Tomarov yerli azarkeşləri sevindirib – 1:0. Az sonra "qırmızı-ağlar" rəqibi ikinci dəfə mərkəzə dəvət ediblər. Bu dəfə Orxan Əliyev hesab arasındakı fərqi artırıb – 2:0. Orxan Əliyev ilk hissənin sonlarında "dubl" etməyə yaxın olub. Lakin onun yerinə yetirdiyi penalti zərbəsini qapıçı dəf edib.

İkinci hissə də komandamız üçün uğurlu başlayıb. Azarkeşlər ikinci 45 dəqiqədə futbolçularımızın "ifa"sında daha 3 qola şahidlik ediblər. Əvvəlcə Fərid Kərimzadənin mükəmməl zərbəsi qolla nəticələnib. Hücumlarını davam etdirən "Araz-Naxçıvan" daha iki dəfə fərqlənib. 51-ci dəqiqədə Bayraməli Qurbanov rəqib qapıçını məyus edib. 60-cı dəqiqədə isə Xəyal Tomarov oyunda ikinci qolunu vurmaqla, qələbədə böyük pay sahibi olub. Qoldan sonra "qırmızı-ağlar" bir neçə epizodda hesab arasındakı fərqi artırmağa yaxın olsalar da, qapıçının sayıqlığı buna imkan verməyib.

Bu görüşdən də qələbə ilə ayrılan "Araz-Naxçıvan" 9 xalla turnir cədvəlinə başçılıq edib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.*

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 58 yoxlama-reyd keçirilmiş, 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir.

Avqust ayında təbii ehtiyatlardan istifadəyə və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə 6 müəssisəyə ekoloji ödəniş tətbiq olunmuş, 22 müəssisə tərəfindən təbii ehtiyatlardan istifadə və ətraf mühitə atılan tullantılara, 8 müəssisə tərəfindən isə mineral xammal bazasının bərpasına ayırmalara görə nazirliyin xüsusi hesabına ekoloji ödəniş həyata keçirilmişdir. Həmçinin 6 müəssisə



tərəfindən atmosfer havasına atılan tullantılara görə xüsusi icazə sənədinin alınması üçün müraciət edilmiş və 594 manat ödəniş haqqı nazirliyin xüsusi hesabına köçürülmüşdür. Ümumilikdə, hesabat ayında nazirliyin xüsusi hesabına 21696,14 manat ödəniş həyata keçirilmişdir.

Ay ərzində Naxçıvan şəhəri, Ordubad, Şərur, Babək, Kəngərli, Culfa və Sədərək rayonlarının 28-dən çox yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər aparılmışdır. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllığın mövcud vəziyyəti öyrənilmiş, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi tapşırıqlar verilmişdir. Sədərək Rayon Su Monitorinq Laboratoriyasında avqust ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 138 analiz aparılmışdır. Nəticələrə əsasən mis və dəmir norma həddi aralığında olmuş, manqan, nikel, qurğuşun, sink, alüminium və tritium izotopunun radioaktivlik dozası norma həddini keçməmişdir.

Ötən ay Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağında 50 hektar sahədə cərgələr arası kultivasiya olunmuş, suvarma aparılmış, "Əshabi-kəhf" ziyarətgahına gedən yolun kənarlarındakı yaşıllıq sahəsinin suvarılması məqsədilə 2100 metr məsafədə dəmir və plastik borular vasitəsilə su xətti çəkilmiş, ziyarətgahın ətrafındakı damcılı suvarma sistemində təmir işləri aparılmışdır. Uzunoba Su Anbarının yuxarı hissəsində 220 dibçəkdə yetişdirilmiş tinglərlə bərpa aparılmış, Qoşadizə, Xətai, Quşçuluq tingçilik sahələrinə aqrotexniki qaydada qulluq göstərilmiş, 10 hektar sahədə suvarma aparılmışdır.

Fövqəladə Hallar Nazirliyi ilə birgə hazırlanmış tədbirlər planına uyğun olaraq bir sıra avtomobil yollarının kənarlarında yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə quru otlar biçilərək ərazidən kənarlaşdırılmış, suvarma aparılmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərində və meşə fondu sahələrində yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə bir sıra yaşayış məntəqələrinin bələdiyyələri, icra nümayəndələri, eyni zamanda meşə gözətçiləri, mühafizə yegerləri və fermerlər maarifləndirilmiş, təlim-məşq keçirilmiş və yanğından mühafizə tədbirlərinin icra edilməsi üçün yeni avadanlıqlar verilmişdir.

Hesabat ayında Zəngəzur Milli Parkının Batabat ərazisindəki muzey fonduna elmi işçilər tərəfindən 48 yeni herbari, 10 mürəbbə nümunəsi, 3 müxtəlif ekstrakt, 25 qablaşdırılmış dərman bitkisi, 2 formalin məhluluna salınmış ilan, 5 heyvan müqəvvası hazırlanaraq yerləşdirilmişdir. Eyni zamanda fauna muzeyi tamamilə yeni formada qurulmuşdur.

İlin əvvəlindən təsdiq edilmiş toxum bölgüsünə uyğun olaraq hesabat ayında 723 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir. Ay ərzində dövlət meşə fondu ərazilərində quru budama işləri aparılmış, 225 kubmetr odun Naxçıvan şəhərində yerləşən hərbi hissələrə verilmişdir.

Yaylaq mövsümü dövründə Şahbuz rayonunun Gömürdağ istiqamətindəki yaylaq ərazilərində məskunlaşmış fermerlərlə görüş olmuş və yaylaqlardan səmərəli istifadə qaydaları, yanğından mühafizə ilə əlaqədar ekoloji-hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi bina 75, mənzil 29 ünvanında yaşayan İbrahimov Qasım Malikəjdər oğlunun adına olan 5694 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şaxtaxtinski Ehdibar Kamil oğlunun adına olan 75 AC 252 nömrəli KRAZ markalı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əzizov Səlim Vaqif oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 783**